

**Fuad Cəfərli**

Lütfən Kədərimi bağışlayın.
Auditoriyada
tərləyən eynəyiniz
Afrikada bir körpənin
yanğısını söndürmədi.
Yəni,
özünüzü aldatmayın, professor.
Əliniz qana bulaşmadırmadığınız kimi
heç tabaşirə də bulaşdırmadınız
sona kimi.
Sadəcə bu universitetdə
sələfləriniz kimi
yazı taxtasının qarşısından keçən
sevdiyiniz tələbələrindən
biri oldunuz...

üşüdü korların kölgəsində
əli çatmadı Günəşə sinqoqların.
...nə minarələr boy atdı,
nə də işıqların pərvanələri...
...Və beləcə tüstülər...

## Adəm sağ olsaydı...

Bir ömür dünya üçün azdı,
ikincisi isə çox...
Bu azlığın və çoxluğun içində
ölçüyə gəlməyən dəhşətə müharibə deyilir.
Əziz peşəkar, sən gəl kəmiyyətin heçliyini
ayağını itirmiş günlərə isbat et!
O zaman görəcəksən,
görəcəksən
bütün kitablar əslində nəsə gizlədirmiş.
Yəni
Yəqin Adəm sağ olsaydı,
belə buyurardı:
...cəftə və ya kilid olan yerdə
qapıdan küsməzlər.

Hər kitab itkini bir cür qarşılayıb.
Köşklər ziyalıları itirib deyə,
təzə abzasdan siqaretə başlayıb.
Xörəklər də xeyli vaxtdır, uduzub çörəyə.
Çörəyin çoxluğu mədəniyyətdən deyil,
dostum, acı olsa da
sən ondan məğlubiyyəti soruş.

Təəssüf ki, hər insanla böyümür sevgi!
Yoxsa geridə qaldığını düşündüyün kastalar
əsrlər sonra küçənin tinində
axsaya-axsaya qarşına çıxmazdı.
İstəsən günahı mühafizəkarlarda
və ya liberallarda da tapmaq olardı,

## Vətən

Bağışla məni ana, bağışla!
Yenə payız küçəmizi salamladı yağışla...
Yenə mən sənə çətir ala bilmədim,
bağışla məni, ana, bağışla!..

Tez gəlib, gec gedən fəslə payız deyilir...
Çətir ala bilənlər çölündə,
ala bilməyənlər hər yağış damcısında
içində əyilir.
Hər əyildikcə
gələn payız, gələn payız deyir;
Mən bitdim, bu payızlarsa bitmədi...

...Hər gələn payız,
gələn payız – dedim.
Bu payızı birtəhər keçir, ana,
gələn payız çətir alaram - dedim.
Ovuc boyda otaqda
özümə də, sənə də
dünya boyda ümid verdim.

Yenə yenildim,
yenə evə çətirsiz gəldim.
Bağışla məni ana, bağışla!

Sürətim yox - qaçıb keçəm!
Qanadım yox - uçub keçəm!
Nə olardı... bir səfərində
bu payızların birini keçəm;
Anama yaraşan, anamı qoruyan,
bir çətir seçəm.
Tutacağı anamın əlləri kimi yumşaq,
dirəyi qüruru kimi möhkəm,
örtüyü üzü kimi ağ olsun.
...və nəhayət,
anam çətirli anaların sırasında dursun.
Nə olar gələn payız, anam, gələn payız...

# Şeirimizin 36-cı kadrı: *Fuad Cəfərli pauzası*

**Tural Turan**

***Əziz oxucular, bu gün Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının üzvü, Prezident mükafatçısı, çağdaş şeirimizin novator gənclərindən olan şair Fuad Cəfərlinin doğum günüdür.***

***Onun poeziyasının birinci və sonuncu düymələri həmişə açıqdır. Çünki şeirlərinin sonuncu misrası həm də bir mətnin ikinci dəfə doğuluşunu xatırladır. Eyni zamanda, şeirlərindəki zaman və məkan həmişə nikah masasına küsülü şəkildə oturur.***

*Bu, onun poeziyasının dəyişməz formuludur. Söhbət 14 noyabrda ömrünün 36-cı baharını qeyd edən şair Fuad Cəfərlidən və onun payızın göz yaşlarına əsir düşən yaradıcılığından gedir.*

*Fuad Cəfərli poeziyası həmişə mənsur poetikliklə könül qapılarımızı döyüb. Amma onun poetik intonasiyasında pafos yoxdur.*

*Fuadın poeziyası həmişə mənə səhrada tək-tənha qalan, kölgəsi susuz yolçulara əl sallayan tənha söyüd ağacını xatırladır.*

*Onun şeirləri təkliyin yox, çoxluğun tənhalığına himn oxumaqdadır. Göy üzündən çətir asan misraları bəlkə də göz yaşlarının ana bətnidir.*

*Müəllifin poeziyasında bütün gəmilər sahilsiz limanlara pənah gətirir. Bəzən misralarından biri bütün şeirin qibləsinə çevrilir. Bəzən də elə ilk misrasından bütün qiblələrdən və istiqamətlərdən imtina edir.*

*Fuad Cəfərli poeziyası kölgəsindən son nəfəsinə qədər özüdür. Yanaşmalar, yansımalar da özünəməxsusdur. Ən əsası, bu poeziyada ağrılar gəlinlik donundadır, yəni həmişə ağ fonda boy göstərir.*

***Şairin yaradıcılığında zaman və məkan arasındakı ədəbi ortanın və əbədi silsilənin zərgər dəqiqliyi ilə işləndiyini görmək mümkündür.***

***Onun şeirləri heç müəllifin özü ilə də hesablaşmaq niyyətində deyil. Şeirləri sanki müəllifin özünə də asidir. Şeirləri qələmə alarkən heç Fuad Cəfərli də bir müəllif kimi onları ram edə bilmir.***

*İlk iki kitabındakı şeirlər göz yaşlarını qara hərflərlə göstərirdisə, sonrakı şeirlərdə oxucu göz yaşlarını işıq gələn tərəflərdə axtarmağa başlayır. Çünki it hürən tərəflərdə ancaq qəhqəhələrin pıçıltısını eşitmək mümkündür.*

*Fuad Cəfərli poeziyasında yaz həmişə yuxulu elegiyanı, yay yaddaşını itirmiş kölgəni, payız qanadlarını unutmuş göy üzünü, qış isə ayağından yaralanmış xatirələri xatırladır.*

*Onun şeirlərinin pəncərəsində həmişə qırmızı rəngli pərdəni görəcəksən, amma otağın iç divarlarının rəngi qarabuğdayıdır. Çünki Şərq və Qərb bu inqilab körpüsündə döyüşə-döyüşə qovuşur.*

*Hətta bu poeziya müstəvisində sülhün damarlarından da bütün müharibələrin şərab qoxulu qanı axmaqdadır.*



***Şairin şeirlərindəki ən ümdə özünəməxsusluq isə poetikadakı dirijor çubuğunun bəşəri dəyərlərə fokuslanmasıdır. Onun millilik ruhundakı misraları da kosmopolit melodiyaların işığına yığışır.***

***Fuad Cəfərli bəlkə də modern Azərbaycan poeziyasının 36-cı kadrı və ya elə bu kadrdakı pauzasıdır.***

***14 noyabr həm də Fuad Cəfərlinin bu günə qədər doğulmuş və doğulacaq bütün şeirlərinin mövlud günüdür. Şeirlərinin doğum gününü təbrik edirəm, şair!***

## Kədərimi bağışlayın

Kitablarda eramızdan əvvəl
insanlar yaramızdan bəhs etmişdi.
Onların uzağı görməyə
nə eynəyi nə də
durbini olub
bu isə onu sübut edir ki,
yaramızın vaxtı çoxdan keçib
yaramız daha yararsızdır, professor.
Təzə olansa yalnız
zamanın uğursuz klonu
dəyirmandır.

## Səs üşüyəndə

Tüstülər qanadı sınıq göz açar,
ilan qabığını dəyişər,
insan ana bətnini.
Səs üşüyəndə sükutu çağırar
çiçəksə, torpağı...

Bir ağacın budağında
hardandı buncaümman?
Dili kəsilmiş kilsə zınqırovları

həyat tələbəsinin kobudluğu
daha uğurlu olur.

Kimsə oradan fərdiyyətçilərə desin ki,
dörd əməl yalnız nəticə üçün deyil,
həm də vəhdət üçündü.

Vəhdətin qanadlandığı yerdə
kölgənin kiçikliyi qədər
böyüklüyü də insana kədər verir.

Lakin çox gec idi.
Artıq sabahların kölgəsi,
valideynə övladını doyunca sevməyə
icazə vermirdi.
Rica edirəm, ürəyimə toxunma,
çün o mənim qanadımdı.
Misralar indiyə bənzəyir,
sanki sabaha dair nəsə deyir.
Fəqət, bağlayıcıları
hər zaman olduğu kimi
yenə sadəcə susur...